

Nəriman Həsənzadə
Xalq şairi

# CƏNUB HƏSRƏTLİ ŞEİRLƏR

## *DÜNYA İŞIQDI*

Mənim köməyim ol, mən dara düşsəm,
Baxma uzaqlardan, gəl dindir məni.
Hardasa, nabələd yollara düşsəm,
özün qarşıma çıx, sevindir məni.

Bəzən hıçqırığım ucalır göyə,
İnsanam, mənim də ağrı-acım var.
Mənim, sən verdiyin bir təsəlliyə,
Sən deylən sözə ehtiyacım var.

Adam var, neyləyim, vicdanı dardı,
onun insafına qalsaydı əgər,
mənim ürəyimi çoxdan qırardı,
adımı hər yerdən çıxartdırardı,
istəyinə çatsın təki birtəhər.

Sən eşit bunları, sıxxılma fəqət,
arabir sevincim qəm qarışıqdı.
Yüz təqib eləsin qoy məni zülmət,
sən varsan dünyada, dünya işıqdı.

## *KÖNLÜM*

Sən gedəndə, öz-özünə
yanar mənim ocaq könlüm.
Sən gələndə susub ağlar
bu anasız uşaq könlüm.

Ömürdən macal istəyir,
nə dövlət, nə var istəyir,
Əlindən sığal istəyir
əllərdə oyuncaq könlüm.

Bir söz desəm, qorxuludu, -
ara vuran eloğludu.
Mənim gözüm yuxuludu,
səni görüb oyaq könlüm.

## *TƏBİƏTİN ƏSƏRİ*

Allah, Allah, necə saf,
necə gözəl, necə pak! -
Necə yaxın görürəm
gözəlliyi mən, Allah!
İylə - çəmən ətridi,
dağ suyudu - iç, yaşa!
Oxunmamış kitabdı,
baxılmamış tamaşa.
İlahi, bu varlığın
yox özündən xəbəri.
Məndən şeir istəyir
təbiətin əsəri.

## *DÜNYANIN HEÇ KƏSİ YOXDU*

Gülərüzlüm, çox ağlama!
göz yaşı məlhəm olmayıb.
İnsan göstər Yer üzündə,
üzündə bir qəm olmayıb?!

Mən səndə səni görmüşəm,
saçında dəni görmüşəm,
Mən bu naləni görmüşəm,
mənim bu naləm olmayıb.

Yaxşı seç qaranı ağdan,
can üzülər ağlamaqdan.
Söz dilimə gəlib haqdan,
əlimdə qələm olmayıb.

Gedən getdi, səsi yoxdu,
təzəsi, köhnəsi yoxdu.
Dünyanın heç kəsi yoxdu,
heç kəsə məhrəm olmayıb.

Gözlərin bolluca qəmdi,
bu səbəbdən hava nəmdi,
Məndən ötrü cəhənnəmdi,
başqa cəhənnəm olmayıb.

*29.07.2000*

## *BƏS EYLƏR*

Dərdini hamıya demə,
bir nəfər bilsə, bəs eylər.
Şərtdimi hamı "can" desin,
bir can "can" desə, bəs eylər.

Sözü-sözündən oxuyan,
səni özündən oxuyan,
Dərdi gözündən oxuyan,
o dərdi bölsə, bəs eylər.

Səni sevən, duyan hanı?
Anan ölsün, anan hanı?
Tanrım, saxla Nərimanı
bir şair bizə bəs eylər.